www.kaspi.az 19 yanvar 2019

# Oqtay RZA - 85



## AZƏRBAYCAN ÖYRƏDİR

Karpatın Haçabel başından aşdıq,
Nəğməm bələdçinin xoşuna gəldi;
Dunay sahilində səhəri açdıq,
Nağıllı günümüz sanki gödəldi.

Yunan gözəlinə qərənfil verdim,
Çexlər bayatımı əzbərlədilər;
Macar mətbəxində plov bişirdim,
Yedilər, “afərin”, “əhsən” dedilər.

Tatar şairləri məclis qurdular,
Söz düşdü Vurğundan, Musa Cəlildən;
Bir neçə rübai oxutdurdular,
Qorqudu soruşdum türkdilli eldən.

Qarmonda çaldığım “Bayatı-Şiraz”
Dolaşdı Bişkekin küçələrini;
Çində dilləndirib “Cücələrim”i,
Alqış yağışında yuyundum bir az.

Başlanır haradan, nədən yollarım?
Sərhəddə qırılır hərdən yollarım;
Məni millətimə bağlayan teldir
Bakıdan hər yana gedən yollarım!

Duyğular bəzəyir könül bağımı,
Görüb-götürməyə hazıram yenə;
Ay dost, bildiyimi, bacardığımı
Anam Azərbaycan öyrədib mənə!

## MUĞAMIN!

Yaranandan həmişə həmdəmidir söz muğamın,
Əbədi od kürəsindən nur alar göz muğamın!

Məcnunun ahı olub şimşəyi yandırsa çalış,
Babadağdan da ağır siqlətinə döz muğamın!

“Rast”, “Rahab” şöhrətimiz, “Heyratı”, “Şur” qüdrətimiz,
Ulu sərkərdə desək, əsgəriyik biz muğamın!

Başqa xalqa, sənətə, musiqiyə hörmət üçün,
Gərək əvvəl sevilə öz vətinin, öz muğamın!

Bakıda hamını heyran eləyən Mərkəzi var
Mehribandan soruşun kimliyini siz muğamın!

Xan, Əlövsət, Qulu, Şövkət ... yaşayır qəlblərdə,
Üzeyir bəy adına gülşənini gəz muğamın!

Çinara oxşadanı nəğməli bağban sayıram,
Budağı, şaxələri sınmaz, əyilməz muğamın!

Kökü üstündə özü yüksələn ehram kimidir,
Yamyaşıl yarpağına toz qona bilməz muğamın!

Sən Füzuli qəzəlindən güc alıb zirvəyə qalx,
Ya da dəryaya cumub qəvvası tək üz muğamın!

Məmləkətlər, qitələr yaxşı tanıyırlar onu,
Tər çiçək toplayaraq yollarına düz muğamın!

Eşit, Oqtay Rza, xoş ruhlara məlhəm səsini,
Yaranandan həmişə həmdəmidir söz muğamın!

## ADIM, TƏXƏLLÜSÜM

Payızda - yağmurlu, çiskinli gündə
Doğuldum, Adımı Oqtay qoydular.
Atamın murazı güldü üzündə,
Səsimi eşidib fərəh duydular.

Adımı pay verdi valideynlər,
Yüz dəftər-kitaba yazıldı adım.
Gördüm xeyirxahlar, qəlbə dəyənlər,
Bəzən tərsinə də yozuldu adım.

Düz seçə bilməkdən ötrü kürsümü,
Oxuyub öyrnədim neçə ustadı.
Rza götürmüşəm təxəllüsümü,
Razılıq rəmzidir babamın adı.

Ömrümün əksimi o işıqlı dan?
Günəş gülşənimə baxır yaxından;
Ötən əsrimizdə yaranmağımdan,
Ərzə göz açdığım ildən razıyam.

Zirvə qarındakı ağlıq taleyim,
Toylarda səslənən sağlıq diləyim,
Gərək yaz gülütək saflıq ələyim,
Xoş söz bağışlayan dildən razıyam.

Bülbül təranəli, çiçəklər rəng-rəng,
Durna qaqqıltısı göyümə gərək;
Qürbətin mərməri nəyimə gərək?
Güyüm düzəltdiyim gildən razıyam.

Əgər yad havalar qopsa neyimdən,
Üstümə daş-kəsək yağdırın, dostlar!
Razılıq eyləsəm şairliyimdən,
Məni təxəllüssüz çağırın, dostlar!

## ƏKSLİK

Ərzin çörəyini sən də yeyirsən, o da,
“Şirindi yaşamaq”, - sən də deyirsən, o da.
Ərzin havasını sən də udursan, o da,
Dünya nemətindən sən də dadırsan, o da.
Sənə də, ona da nur verən Günəş,
Qışı ilk bahara çevirən Günəş
Yalnız yaranmayıb səmadan ötrü,
Ay da gülümsəyir hamıdan ötrü.
Bəs nəyə görədir bu fərq, əkslik:
Birimiz yaxşılıq, birimiz pislik.
Birimiz qu quşu, birimiz ilan,
Birimiz həqiqət, birimiz yalan.
Birimiz uçurur, birimiz tikir,
Birimiz məhəbbət, birimiz məkr.
Səndə səxavət var, onda xəsislik,
Ah, nəyə görədir bu fərq, əkslik?!

## YER QURŞAĞI

Məndən yuxarıda qövsi-quzeh var,
Məndən aşağıda füsunkar tala.
Əlvan xalıların üstündə şeh var,
Bəzənib hər tərəf göyə, yaşıla.

Güllər bənövşəyi, sarı, mavi, ağ,
Zolalar işığın yeddi rəngitək.
Ətirlə doldurur sinəmi torpaq,
İlham ürəyimdə coşur “Cəngi”tək.

Heyranam hüsnünə dağın, dərənin,
Göyə də baharın izi düşübdür;
Sanki vurulduğum bu mənzərənin
Səma güzgüsünə əksi düşübdür!

## ŞEİR

Onun dərinliyi, ucalığı var,
Onun şirinliyi, acılığı var;
Bağ salıb gülüstan becərir şeir!

Bəzən budaqları sındırılsa da,
Tonqala atılıb yandırılsa da,
Yüz yerdə yenidən cücərir şeir!

Gedir xoş məramla toya, məclisə,
Halaldır yaxşıya, qənimdir pisə;
Mərdə can dərmanı içirir şeir!

Düşünür sabahı, anır keçmişi,
Mərmilər, bombalar görməyən işi
Odlu misralarla bacarır şeir!

İllərin üstündən sürür atını,
Ellərin eşqini, xatiratını
Nəsildən-nəsilə keçirir şeir!

Damardan-damara axır qan kimi,
Ürəyi böyüdür asiman kimi;
Ürəyə dünyalar köçürür şeir!

## MÖVLANƏ RUMİ

Sözünün bəzəyi - hikmət, gözəllik,
Dillər əzbəridir Mövlanə Rumi;
Arxada qalsa da səkkiz yüzillik,
Ölməyib, diridir Mövlanə Rumi!

İdraka dəryadan dərin deyir o,
“Gəl, gəl! Göz üstədir yerin” deyir o;
“Olduğun kimi də görün” deyir o -
Nə vaxtdan bəridir Mövlanə Rumi!

Doğmadır Konyaya, Təbrizə, Qarsa,
Türkə, yəhudiyə, ərəbə, farsa...
Tanrıya çox yaxın on dahi varsa,
Onların biridir Mövlanə Rumi!

“Eşqi də oyadıb” şeirin səsiylə,
Ruhsuza can verib pak nəfəsiylə;
Əlli min beytlik “Məsnəvi”siylə
Əbədi yol gedir Mövlanə Rumi!

Qədim müasiri bütün çağların
Uca zirvəsidir qoca dağların.
Haqqı, hürriyyəti sevən xalqların
Böyük şairidir Mövlanə Rumi!

## FƏSİL DƏYİŞƏNDƏ

Sarı köynəyini geyinib bağlar,
Meşədə yarpaqlar xəzələ dönüb.
Heyranı olduğum dilbər qovaqlar,
Şalını itirən gözələ dönüb.

Duyulur nəfəsi çənin, ayazın,
Küləklər bayatı çağırır yenə.
Durub ayrıcında qışla payızın-
Baxıram arxaya, baxıram önə...

Salam, kimliyimin kamillik ili,
Açırsan qapını gülə-gülə sən!
Gəmim haraylayıb neçə sahili,
Son liman hardadır, necə biləsən?

Sinəmdə min ocaq hərarəti var,
Fikrim yüz hədəfə şığıyan oxdur.
Ömür-gün yolunun nəhayəti var,
Fəqət arzuların hüdudu yoxdur.

Səsimdə, sözümdə əvvəlki ahəng,
Ruhumun qidası təranələrdir.
Pöhrə duyğularım sərv ağacıtək,
Həmişə yaşıldır, həmişə tərdir.

Dünyaya gəlmək də, ölmək də haqdır,
Gərək yaşayasan əməllərində!
Günəş də get-gedə soyuyacaqdır,
Başqası yanacaq onun yerində.

...Nəvəm ürəyimi döndərir dağa,
Özüməm - həyatda təkrarımdır o.
Gücüm çatmasa da cavanlaşmağa,
Geriyə qayıdan baharımdır o!